*Gülər ELDARQIZI*

# *KİMİMSƏN MƏNİM*

**Axı sən de kimsən, kimimsən mənim,
Niyə düşünürəm səni hər gecə?
Elə bil səninlə ömür sürürəm,
Necə darıxıram, ah, bilsən necə...**

**Səhərim açılır sənin adınla,
Dediyim kəlmədə, hər sözdə varsan.
Sağımda da sənsən, solumda da sən,
Bəlkə vücudumun təni, yarısan?**

**Dilimə gətirə bilmərəm heç vaxt
İçimdə boğulan istəklərimi.
Bir də ki, sən ayrı, mən ayrı adam,
De, necə diləyim diləklərimi?**

**Heç nə istəmirəm, yalnız bir dəfə
Yenidən gözünə baxa biləydim.
Batıb baxışının dərinliyində,
O saf ürəyinə axa biləydim.**

**Eh, nə düşünürəm, dəli olmuşam,
De nəyi itirib, nə axtarırsan.
Mən təmiz ürəklə sevərəm səni,
Doğru de, sən məndə nə axtarırsan?**

Ədalət.- 2020.- 7 mart.